# Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 264.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından protokol tərtib etmək səlahiyyəti olan şəxslər:

1. Azərbaycan Respublikasının fövqəladə hallar naziri;
2. Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin müavinləri;
3. Nazirliyin Fövqəladə halların xəbərdar edilməsi işinin təşkili idarəsinin rəisi;
4. Nazirliyin Fövqəladə halların xəbərdar edilməsi işinin təşkili idarəsinin Əhalinin və ərazilərin təhlükəsizliyinin təşkili şöbəsinin müdiri;
5. Nazirliyin Fövqəladə halların xəbərdar edilməsi işinin təşkili idarəsinin Əhalinin və ərazilərin təhlükəsizliyinin təşkili şöbəsinin müdir müavini;
6. Nazirliyin Fövqəladə halların xəbərdar edilməsi işinin təşkili idarəsinin Əhalinin və ərazilərin təhlükəsizliyinin təşkili şöbəsinin baş məsləhətçiləri;
7. Su Ehtiyatları Dövlət Agentliyinin rəisi;
8. Su Ehtiyatları Dövlət Agentliyinin rəis müavinləri;
9. Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri;
10. Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar nazirinin müavini.